*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*

***ISSN: 2148-2292***
***10 (4) 2023***
*https://doi.org/ 10.46868/atdd.2023.*

***Derleme Makalesi | Review article***
***Geliş tarihi |Received : 12.07.2023***
***Kabul tarihi |Accepted: 30.07.2023***
***Yayın tarihi |Published : 25.08.2023***

**Mətanət Zalova**

*https://orcid.org/0009-0002-4928-9098*
*Ganja city, Mir Jalal Pashayev named after full secondary school number 39 English and French language teacher, metanetzalova29@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Zalova, M. (2023). İngilis Dilinin Dünya Dili Kimi Əhəmiyyəti və Öyrədilmə Metodları. *Akademik Tarih ve Düşünce Dergisi, 10* (4), 1067-1071.

# İngilis Dilinin Dünya Dili Kimi Əhəmiyyəti və Öyrədilmə Metodları

***Özet***

*Dil informasiya mübadiləsi, mədəni dəyərlərin ifadə edilmə vasitəsdir. Dil öyrənmək isə hadisədir. Çoxəsrlik təkamül yolu keçmiş ingilis dilinin tarixi xalqımızın tarixi qədər qədimdir. Bu dil hazırki inkişaf mərhələsinə birdən-birə çatmamış, çox ciddi təsir və təzyiqlərə məruz qalmışdır. Zaman-zaman bir sıra işğalçılarla üz-üzə gəlmiş və bunlar da ingilis dilinin söz ehtiyatına önəmli təsirini göstərmişdir. Qloballaşan və inkişaf edən dünyamızda ingilis dilini öyrənmək artıq "məcburi"dir. Çünki ingilis dili artıq təkcə elm və texnologiyanın əsası deyil. İndi ingilis dili təhsil və biznesin beynəlxalq dilinə çevrilib.Getdikcə dünyanın ünsiyyət qura bilməsi üçün ortaq dilə çevrilən ingilis dili ölkəmizdə də artıq geniş şəkildə yayılıb. Britaniya ingiliscəsi, Amerika ingiliscəsi, Kanada ingiliscəsi, Avstraliya ingiliscəsi ingilis dilinin variantlarıdır.Bu variantlarda tələffüzdə fərqlər olduğu kimi, sözlərdə də müxtəlifliklər mövcuddur.*

***Açar sözlər:*** *İngilis dili, tədris, məktəblər, pedoqojika, fənn*

# Importance of English as a World Language and Teaching Methods

***Abstract***

*Language is a means of information exchange and expression of cultural values. Learning a language is an event. The history of the English language, which has undergone centuries of evolution, is as old as the history of our nation. This language did not reach its current stage of development suddenly, it was subjected to very serious influences and pressures. It has faced a number of invaders from time to time, and these have had an important impact on the vocabulary of the English language. Learning English is now "compulsory" in our globalized and developing world. Because English is not only the basis of science and technology. Now the English language has become the international language of education and business. Increasingly, the English language, which has become a common language for the world to communicate, has already spread widely in our country. British English, American English, Canadian English, Australian English are variants of the English language. In these variants, there are differences in pronunciation, as well as in words.*

***Keywords:*** *English language, teaching, schools, pedagogy, subject.*

## Giriş

Azərbaycanda ingilis dili əsasən məktəblərdə öyrənilir və bu son zamanlar ən çox diqqət götərilən mövzuardandır. Bu dilin öyrənilməsi eyni zamanda xaricdə təhsil və yaxud xaricdə yazılan mənbələrə çıxış baxımından da son dərəcə önəmlidir. Müstəqil Azərbaycanın beynəlxalq əlaqələrinin sürətlə genişlənməsi dünyada aparıcı rola malik və qlobal səviyyədə əsas ünsiyyət vasitəsi olan ingilis dilinin öyrənilməsi vəzifəsini qarşıya qoyur. İngilis dili belə dillərdəndir. Bu dil hind-avropa dilləri ailəsinə aiddir. Mənbələrdə ingilis dilinin inkişafı üç mərhələyə bölünür: qədim dövr ingilis dili (450—1066), orta dövr ingilis dili (1066—1500), yeni dövr ingilis dili (1500-ci ildən indiki dövrə qədər).

Günümüzdə ingilis dili korporativ dünyada qlobal karyera üçün əsas təməl daşlardan biridir. Dil və qloballaşma anlayışları bir-birini dəstəkləyən anlayışlardır. Dilin yayılması üçün kütləvi informasiya vasitələri lazımdır. Kütləvi informasiya vasitələrinin başa düşülməsi və yayılması üçün qlobal dil lazımdır. İngilis dilinin universal inkişafına nəzər saldıqda, tarixdə baş verən hadisələr onun digər cəmiyyətlərdə istifadəsinə təsir göstərmişdir. Əgər ingilis dilini bilirsinizsə, yerli vəya xaricdə daha yaxşı iş tapmaq şansınız var. Ana dilindən başqa dillərin

danışılmadığı ölkələrdə müştəri olan şirkətlər ünsiyyət vasitəsi kimi ingilis dilinə etibar edirlər. Buna görə də onlara daha gəlirli müqavilələr bağlamaq və ya dünyanın istənilən yerində ən yaxşı tərəfdaş tapmaq üçün ingiliscə danışan heyət lazımdır.

Əcnəbi dillərin, xüsusilə də, ingilis dilinin tədrisində bir neçə metod və üsullardan istifadə olunur. Müasir dövrdə dünyada ənənəvi üsullardan fərqli olaraq geniş yayılan və tətbiq olunan tanınmış metodlardan biri "Kallan metodu"dur (Callan method). Kallan metodu ingilis dilini öyrədən təhsil sistemləri arasında seçilən, həssas, kompleks bir nümunə olub əsas üstünlüyü və diqqəti şifahi nitqə yönəldən, tətbiq edilməsi son dərəcə rahat və axıcı İngiltərə patentli bir dili proqramıdır. Bu metodla müəllim xarici dili öyrənənlərin dinləmə və danışıq qabiliyyətini inkişaf etdirməklə yanaşı, onu asan, əyləncəli, sürətli və praktik yolla qarşısına məqsəd qoyaraq tədris edir. Bu termini elmə ilk dəfə 1960-cı ildə İngiltərədə Robert Kallan gətirmiş və az müddətdə digər dərs proqramları və vəsaitləri ilə müqayisədə daha əlverişli olduğunu sübut edə bilmişdir" (Əsgərova, 2019).

İngilis dilinin xarakterik cəhətlərindən biri onun qısa sözlərdən ibarət olmasıdır. Uzun sözlər dildə olsa da, onlara az rast gəlinir. Qısa sözlər ingilis dilinə alman tayfalarının dilindən, uzun sözlər isə fransız dilindən və latın dilindən keçib. Qısa sözlər danışıqda və jarqonda, uzun sözlər isə elmdə və publisistikada işlədilir.İngilis dili birdən-birə dünyaya hakim olmadı. Baş verənlər qlobal ünsiyyətdə ortaq bir dilə ehtiyacın yaranmasına səbəb oldu. Bu tarixi və mədəni inkişafları aşağıdakı kimi sadalaya bilərik:

*Britaniya İmperiyasının böyüməsi;*

*Amerika Birləşmiş Ştatların Britaniya İmperiyası tərəfindən itirilən gücü ələ keçirməsi;*

*Sənaye İnqilabı;*

*Bank işinin yaranması;*

*Beynəlxalq münasibətlərdə ortaq dilə ehtiyacının yaranması;*

*Kinonun bütün dünyaya yayılması;*

*Elmi tədqiqatın inkişafı;*

*İnformasiya əldə etmək imkanlarının genişlənməsi;*

Görüldüyü kimi zamanın tələbi və dünyada gedən proseslər dünyada ortaq dilin qəbul olunması üçün münbüt şərait yaratmışdır. Ölkəmizdə xarici dil müasir informasiya mənbələrinə açılmaq vasitəsi kimi deyil, hər kəsin bilməli olduğu düşünüldüyü üçün öyrənilir. Əksər insanlar xarici dili niyə öyrəndiklərinin fərqində belə deyillər.

Qeyd edək ki, ingilis dilinin öyrədilməsində bir çox metoddan istifadə olunur. Məsələn, təbii yanaşmada [natural method] tərcümənin olmaması, ana dili olanlarla birbaşa ünsiyyət quraraq xarici dili öyrənə bilməsi, müəllimlərin həmin dildə danışan olması bu arqumenti dəstəkləyir. Təbii yanaşma və təbii üsul orta əsrlərdə yaranmış və tətbiq olunmağa başlamışdır.Digər metod qrammatik tərcümə [grammar-translation method] adlanır. XX əsrin əvvəllərində birbaşa üsul [direct method] ortaya çıxdı.Fərqli bir yanaşma olan audio-linqvistik metod dilin şifahi istifadəsinə üstünlük verən və bu bacarıqların davranışsal öyrənmə şərhlərindən istifadə edərək, dialoqlardan istifadə etməklə dil strukturlarını müəyyən ardıcıllıqla öyrətməyi hədəfləyən xarici dil öyrətmə üsuludur. Bir növü intensiv şifahi məşqlərdir. “Dünyada cəmiyyətlər arasında sərhədlər və kommunikasiya maneələrinin tədricən aradan qaldırılması və siyasi, digər ölkələrlə birlikdə inkişaf etmək iqtisadi və texniki, elmi və təhsi sahədə məlumat mübadiləsi aparmaq arzusu multikulturalizm, çoxdillilik qəbul edilməsinə səbəb olmuşdur. Bu heç olmasa ana dili ilə birlikdə İki dil öyrənməyin zəruriliyi məsələsini gündəmləşdirdi”( https://www.acarindex.com/dosyalar/makale/acarindex-1423874886.pdf).

Avropa Birliyi kimi təşkilatlar ümumilikdə təhsil sahəsinə təsir göstərir. eləcə də dil tədrisi sahəsində tətbiqlər haqqında məlumat mübadiləsi. ümumi məqsəd, məzmun, metod, materiallar və müəllim hazırlığı məcburi qərarlar, çərçivə proqramları üçün "Şəbəkə Kurikulum və Qiymətləndirmə haqqında Məlumat kimi mərkəzlər və ya Lingua” (Garabédian, 1991,s. 20). kimi layihələr həyata keçirilməyə başlandı.

Araşdırmalar göstərdi ki, uşaqlar dildə bəzi mövzular (məsələn: vurğu və səsləri) böyüklərdən daha aktiv öyrənmə vərdişlərinə meyllidirlər,bu da erkən yaşda dil öyrənməyin önəmini bir daha gündəmə gətirir. Son araşdırmaların nəticələrinə görə, iddia olunur ki, erkən yaşda xarici dil öyrənməyə başlamaq uşaqların ümumi inkişafına çoxşaxəli təsir göstərir, məsələn: onların idrak və intellektual inkişafına da müsbət töhfə verir (http//www. Goethe.de/z/50/pub/nuernb/teil_a.htm).

“Xarici dilin tədrisi zamanı gənclər xarici aləmə daxil olmağı, həyatın fərqli qaydalarını, ənənələrini aşkar etməyi, fərqli dəyərləri, mentallıqları anlamağı bacarmalıdırlar. Belə ki, uğurlu kommunikasiya yalnız nitq vərdiş bacarıqlarından deyil, eləcə də fərqli mədəni mövzuların anlaşılması və onlara hörmətlə yanaşma bacarığından da asılıdır. Məhz bu bacarıqların və yanaşmaların formalaşmasına “mədəniyyətlərarası dialoq” istiqaməti xidmət edir” (İsmayılova, 2014). İngilis dili dərslərində İKT-nin tətbiqinin əsas məqsədi orta məktəblərdə İKT-ni tətbiq

etməklə tədris prosesini xeyli canlandırmaq, təhsilin və biliyin səviyyəsini artırmaq, dərsləri şagirdlər üçün daha maraqlı və başa düşülən etmək, təhsildə idarəetmə sisteminin effektivliyini və şəffaflığını artırmaq, məktəbin vahid informasiya məkanını yaratmaq, müəllim, şagird və valideyn arasında rahat ünsiyyət forması qurmaqdır (https://sharewithcare.wordpress.com/2012/05/19/ikt-nin-ingilis-dili-).

**Nəticə**

Nəticə olaraq qeyd edə bilərik ki, ingilis dili şagirdlərin beynəlmiləl tərbiyəsində xüsusi əhəmiyyətlidir. İctimai-siyasi, sosial-mədəni sahələrdə sürətli inkişaf dövründə, texnologiyaların rolunun artdığı müasir dövrdə qloball aşma prosesinin və inteqrasiyanın təsirindən baş verən keyfiyyət dəyişiklikləri ingilis dilinin tətbi qi imkanını artırır. Azərbaycanda orta məktəb və liseylərdə ingilis dilinin müxtəlif variantları tədris olunur. Özəl liseylərdə ingilis dilinin tədrisi metodikası dövlət məktəblərindən fərqlidir. Nəticə olaraq qeyd edək ki, bu günün dünyasında ingilis dilinin öyrənilməsi vacibdir. Və eyni zamanda ölkəmizin beynəlxalq sistemdə təmsili, siyasət, tarix, din və dil kimi məsələlərdə fikir bildirmək, dünyada szö haqqına sahib olmaq baxımından da bu dili öyrənmək vacibdir. Bu səbəblə orta məktəblərdə ingilis dilinin tədrisinə dah açox əhəmiyyət verilməli, fərqli yollar, üsullar istifadə olunmalı, beynəlxalq təcrübə metodları diqqətdə saxlanılmalıdır.

**Ədəbiyyat**

Əsgərova, A. İngilis dilinin tədrisində Kallan metodunun tətbiqi; https://muallim.edu.az/news.php?id=4553&lang

Garabedian, M. (1991) *Enseignement/Apprentissages Précoces des Langues.* Hachette F.L.E.

Goethe-institut, (1997). *Recommandations de Nuremberg*. Munich.

İsmayılova, A. (2014). Xarici dilin tədrisi metodikasinin bəzi istiqamətləri. *Azərbaycan məktəbi, 5, 91-93.*

*Xarici dillərin tədrisinin aktual problemləri mövzusunda Respublika elmi konfransının tezisləri* (2018). (06-07 dekabr 2018-ci il, Azərbaycan). ADU.

https://www.acarindex.com/dosyalar/makale/acarindex-1423874886.pdf